# QİDA SƏNAYESİNİN İNKİŞAFINDA KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN ROLU

*Hüsüyev B.B.*
*Mingəçevir Dövlət Universiteti*
*babek.bk@bk.ru*
*+994513535330*
*İstanbul Dövlət Universitetnin doktorantı*

Azərbaycanda sahibkarlığın davamlı inkişafı məqsədilə hüquqi tənzimləmə, qanunvericilik bazasının təkmilləşdirilməsi yolu ilə biznes mühitinin yaxşılaşdırılması əsas hədəflərdən biridir. Ölkəmizdə son illər həyata keçirilən bu iqtisadi islahatlar biznes mühitinin daha da yaxşılaşdırılmasını, təşviq siyasətinin davam etdirilməsini və institusional islahatları əhatə edir.

Azərbaycanda uzun illərdir neft gəlirləri ümümi daxili məhsulun və milli gəlirin böyük bir hissəsini təşkil etməktədir. Bu asılılığı aradan qaldırmaq üçün bir sıra tədbirlər planı işlənib hazırlanıb ki, bunlardan ilki 2004-2008ci illəri əhatə edən “Regionların sosial-iqtisadi inkişafı”nın dövlət programıdır. Bu program 4 illik müddəti əhatə edir və hər müddət tamamlandıqca program yenilənir. Bu programın məqsədi regionlar arası sosial-iqtisadi qeyri bərabərliyin aradan qaldırılması və əsası qeyri neft sektorunun inkişaf etdirilməsidir. Sənayenin inkişaf etdirilməsi məqsədi ilə 2014-cü il Azərbaycanda sənaye ili olaraq qeyd edilmişir. Sənayenin inkişafı xammal və materiallardan çox asılı olduğu üçün həm mədənçilik, həm kənd təsərrüfatının inkişaf etdirilməsi vacib məsələlərdən biridir. Təsadüfi deyil ki, 2015-ci ilin kənd təsərrüfatı ili elan edildi və beləliklə kənd təsərrüfatı istehsalçıları bütün vergilərdən azad edildi(torpaq vergisi istisna olmaqla). Bundan başqa milli iqtisadiyyatın əsas sektorlarını inkişaf etdirmək məqsədi ilə 2016-cı ildə strateji yol xəritəsi işlənib hazırlanmışdır. Bununlada kiçik və orta sahibkarlıq fəaliyyəti üçün müstəsna bir mühit yaradıldı. Biznes kreditlərini əl çatanlığı, sahibkarlar üçün hüquqi bazanın yaradılması, müxtəlif supsidya və dotasiyaların verilməsi kiçik və orta biznesin inkişafına təkan verdi.

Sənayenin inkişafı qeyri neft sektorunu inkişafı üçün ilkin mənbə hesab edilir. Hal-hazırda sənayenin inkişafı üçün Azərbaycanda müxtəlif addımlar atılır ki, bunlara misal olaraq son illərdə istifadəyə verilən Sumqayıt kimya-sənaye, Balaxanı sənaye, Qaradağ sənaye parklarını misal göstərmək olar. Bundan başqa 44 günlük müharibədən sonra geri alınmış torpaqlarımızdada

bir sıra layihələr ərsəyə gətirilmişdir. 2021-ci il 28 may tarixli Azərbaycan prezidentinin fərmanına əsasən 190 hektar ərazidə minalardan təmizlənmə işləri aparılmış və Ağdam Sənaye parkı yaradılmışdır. Yuxarıda sadalananlar birdaha göstərir ki, Azərbaycanın ilk hədəfi neft asılılığını aradan qaldırmaq kiçik və orta biznesin inkişaf etdirilməsi, digər sahələrin o cümlədən sənaye müəssisələrini inkişaf etdirilməsi və eyni zamanda kənd təsərrüfatının illik dövriyyəsini yüksəltmək və ölkənin Ümumi daxili məhsul payında sənaye bölməsinin payını artırmaqdır.

Azərbaycanda fəaliyyət göstərən sənaye müəssisələrini ümumi sayı 1995-ci ildə 2094 vahid olmuşdur. 2021-ci ildə isə bu göstərici 3689 vahid müəssisə olmuşdur. İllər ərzində sənaye müəssisələrinin sayında 176% artım olmuşdur.

Qeyd etdiyimiz kimi Azərbaycanda yeni sahibkarlıq subyektlerinin yaradılması üçün, dövlet bir sıra tədbirlər işləyib hazırlayır. Bunların nəticələrini görmək üçün statistikalara baxmağımız kifayət edir. Azərbaycanda 2020-ci ildə yeni yaradılmış sahibkarlıq subyektlərinin ümumi sayı 103949, bunlardan hüquqi şəxslər 15961, fərdi sahibkarlar isə 87988 vahid olmuşdur. 2021-ci ildə isə yeni yaradılmış sahibkarlıq subyektlərinin ümumi sayı 167475, bunlardan hüquqi şəxslər 9304, fərdi sahibkarlar isə 158171 vahid olmuşdur. O cümlədən 2020-ci ildə yeni yaradılmış mikro sahibkarlıq subyektlərinin ümumi sayı 103756, bunlardan hüquqi şəxslər 15768, fərdi sahibkarlar isə 87988 vahid olmuşdur. 2021-ci ildə bu göstərici müvafiq olaraq yeni yaradılmış mikro sahibkarlıq subyektlərinin ümumi sayı 167271, bunlardan hüquqi şəxslər 9100, fərdi sahibkarlar isə 158171 vahid olmuşdur. 2020-ci ildə yeni yaradılmış Kiçik sahibkarlıq subyekti olan müəssisələr və yeni yaradılmış orta sahibkarlıq subyekti olan müəssisələrin sayı müvafiq olaraq ümümi sayda 161, 32, Hüquqi şəxslər 161, 32, fiziki şəxslər isə sabit qalmışdır. 2021-ci ildə bu göstərici müvafiq olaraq ümumi sayda 161, 43, Hüquqi şəxslər 161,43 fərdi sahibkarlıq sabit olaraq qalmışdır. Göründüyü kimi əvvəlki il ilə müqayisədə sahibkarlıq subyektlərinin sayı artım göstərməkdədir.

Kənd təsərrüfatı ilə məşğul olan sahibkarların sayının statistik göstericilərinə baxaraqda ölkədə qəbul edilmiş programların müsbət təsirlərinin görə bilərik. 2020ci ildə kənd təsərrüfatında sahibkarlıqla məşğul olanların sayı ümumi respublika üzrə 3087 nəfər, 2021-ci ildə isə 3590 nəfər olmuşdur. Aşağıda ki, statistik göstəricilərdə 2020 və 2021- ci ildə kənd təsərrüfatında sahibkarlıqla məşğul olanların sayında ki, dəyişiklikləri görə bilərsiniz.

Cədvəl 1

| | 2020 | 2021 |
|---|---|---|
| Bakı şəhəri | 16 | 52 |
| Naxçıvan Muxtar Respublikası | 195 | 166 |
| Abşeron-Xızı iqtisadi rayonu | 163 | 254 |
| Dağlıq Şirvaniqtisadi rayonu | 227 | 293 |
| Gəncə-Daşkəsən iqtisadi rayonu | 56 | 133 |
| Qarabağ iqtisadi rayonu | 295 | 259 |
| Qazax-Tovuz iqtisadi rayonu | 247 | 395 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 169 | 280 |
| Lənkəran-Astara iqtisadi rayonu | 157 | 174 |
| Mərkəzi Aran iqtisadi rayonu | 554 | 570 |
| Mil-Muğan iqtisadi rayonu | 145 | 107 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 229 | 225 |
| Şərqi Zəngəzur iqtisadi rayonu | 40 | 45 |
| Şirvan-Salyan iqtisadi rayonu | 594 | 636 |

https://stat.gov.az/source/agriculture/

Göründüyü kimi Naxçıvan Muxtar Respublikası, Qarabağ iqtisadi rayonu, Mil-Muğan iqtisadi rayonu, Şəki-Zaqatala iqtisadi rayonu istisna olmaqla bütün iqtisadi rayonlarda artım müşahidə olunmaqdadır. Bu da öz növbəsində dövlət siyasətinin uğurlu olması və yeni sahibkarların yaranması deməkdir. Həmçinin ölkədə sahibkarlıq fəaliyyətinə yerli və xarici investorların cəlb edilməsi üçün böyük bir imkan yaratmaqdadır.

Bildiyimiz kimi qida sənayesin inkişafı bir başa kənd təsərrüfatı subyektlərinin inkişafından bir başa asılıdır. Qida sənayensin xammal təminatının bir başa mənbəyi kənd təsərrüfatı məhsulları hesab olunur. Araşdırmamızdan bu nəticəyə gəlmək olar ki, ölkədə aparılan doğru siyasət: qeyri neft sektorunu inkişaf etdirməyə, yeni sahibkarlıq fəaliyyətlərinin yaranmasına, daxili və xarici investisiya qoyuluşlarının həcmini artırmağa, kənd təsərrüfatının inkişafı, o cümlədən qida sənayesi-nin inkişafına təkan verməkdədir. Kiçik və orta sahibkarlıq fəaliyyətinin üstün cəhətləri ondan ibarətdir ki, bazara tez uyğunlaşa bilir, yeniliklərə asanlıqla keçid edir, böyük biznes sahibkarlarını xammal və yarım fabriqatlarla təmin edir. Bu nöqteyi nəzərdən sənaye parklarının inkişafı kiçik və orta sahibkarların inkişafından asılıdır. Qida sənayesinin inkişafı kənd təsərrüfatı subyektlərindən asılılığını nəzərə alaraq dövlət bir sıra tədbirlər planə işləyib hazırlayır. Kənd təsərrüfatı sahibkarlarına müəyyən miqdarda supsidya və dotasiyalar verməklə istehsalı sitimullaşdırır nəticədə qida sənayesi üçün lazım olan xammal təmin olunur. Bildiyimiz kimi heç bir ölkə

xarici iqtisadi əlaqələri olmadan fəaliyyət göstərə bilməz, belə ki, ölkə daxilində ucuz başa gələn məhsulu ixrac etmək, xaricdən alınması ucuz olan məhsulları isə idxal etmək. Lakin hər bir ölkə çalışmalıdır ki, xarici iqtisadi asılılığı azaltsın və bunu biz 2020-ci il pandemiya dövründə şahidi olduq. Ölkə sərhədlərinin bağlanması, tranzit daşımalarda ki, çətinliklər və.s iqtisadi problemlərə gətirib çıxardı. Bu nöqteyi nəzərdə hər bir ölkə çalışmalıdır ki, öz daxili imkanlarından maksimum səviyyədə istifadə edərək xarici asılılığı azaltsın. Azərbaycan 1994cü il 20sentyabr tarixində bağladığı "əsrin müqaviləsi" adlanan dünyanın 11 ən iri şirkətinin Azərbaycana gəlməsinə vəsilə olan müqavilədə "Azəri", "Çıraq", Günəşli yataqlarının dərinliklərində olan neftin çıxarılması üçün dəyəri 7.4 mlrd dollar olan pay bölgüsü var qeyd olunmuşdur. Neft gəlirləri Azərbaycanın Ümumi daxili məhsulunun və Milli gəlirində uzun illər yüksək paya sahib olmuşdur. Bu qeyri bərabərliyi aradan qaldırmaq məqsədilə Azərbaycanda bir sıra proqamlar işlənmişdir. Bu proqramlar sayəsində Azərbaycanın Ümumi daxili məhsul və Milli gəlirində qeyri neft sektorunun həcmi artmağa başlamışdır. Xüsusəndə yüngül sənaye o cümlədən qida sənayenin artımı müşahidə olunmaqdadır. Ölədə kiçik və orta biznesin inkişafına təkan verəcək addımlar atılmışdır. Nəticə etibarı ilə dövlət sektorlarının sayı azalmış və xüsusi bizneslərlə əvəz olunmağa başlamışdır. Yeni bizneslərin yaranması ölkədə yeni iş imkanları, dövriyənin sürətlənməsinə, alıcılıq qabiliyyətinin artmasına, nəticə etibarı ilə yenidən, yeni istehsal sahələrinin yaranmasına ümumi halda isə ölkənin sosial-iqtisadi vəziyyətinin yaxşılaşmasına gətirib çıxarır. Ölkənin potensialından maksimum faydalı istifadə etməli və həm kiçik və orta biznesi, həmdə sənaye müəssisələrinin sayını artırmalıdır.

**Ədəbiyyat.**

1. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi. Bakı. 2016

2. "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasi prezidentinin fərmanı. Bakı.2019

3. Azərbaycan Respublikasının "Sənaye ili" elan edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin sərancamı. Bakı. 2014

4. Azərbaycan Respublikasında "Kənd Təsərrüfatı ili" elan edilməsi haqqında Azərbaycan Respublikasının Sərəncamı. Bakı. 2015

5. https://economy.gov.az/az/page/senaye-zonalari/senaye-parklari

6. https://stat.gov.az/source/agriculture/

7. https://president.az/az/articles/view/14015